AMEA *İqtisadiyyat İnstitutu* «**ELMİ ƏSƏRLƏR**» - **№6- 2017**
ISSN 2519-4909 **E-ISSN 2519-4917**

UOT: 338
JEL: L 59

NURİYEV Ə. X.
AMEA-nın müxbir üzvü, i.e.d.,professor,
Azərbaycanın əməkdar elm xadimi.

AZƏRBAYCANIN QEYRİ-NEFT SƏNAYE MÜƏSSİSƏLƏRİ: MÖVCUD VƏZİYYƏT VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Xülasə

Məqalədə Azərbaycanın qeyri neft sənayesində son illərdə aparılan islahatlar nəticəsində regionlarda kiçik,orta və böyük sənaye müəssisələrinin sayının artması və buna müvafiq olaraq sənaye məhsulu istehsalının artması meyilləri aşkara çıxarılır.Bu sahədə mövcud problemlər, çatışmamazlıqlar müəyyən edilir və onların həlli istiqamətində təklif və tövsiyyələr irəli sürülür.Kiçik müəssisələrin sayının artmasının vacibliyi əsaslandırılır.

Açar sözlər: *kiçik ,orta və böyük müəssisələr ,sənaye siyasəti,sənaye potensialı, ixrac yönümlü məhsul istehsalı*

GİRİŞ

Məlumdur ki, sənayenin davamlı inkişafı ölkənin bütün iqtisadiyyatının davamlı səmərəli inkişafının,əhalinin həyat səviyyəsinin yüksəlməsinin əvəz olunmaz şərtidir.Ölkənin daxili ümumi məhsul istehsalının artımında sənaye çox mühüm yer tutur.2016- cı ildə Respublikamızda yaranmış əlavə dəyərin 37,2%-i , ümum mənfəətin 42,3%-i, xalis mənfəətin 42,6%-i, əsas kapitala investisiyasının 63 və əsas fondların 58%-i sənayenin payına düşmüşdür.Sənaye sahəsində texniki-texnoloji tərəqqi,məhsulun keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəlməsi iqtisadiyyatın bütün sahələrində belə müsbət keyfiyyətlərin formalaşmasına zəmin yaradır.Odur ki, müstəqilliyimizin keçən illərindən,xüsusilə regionların sosial-iqtisadi inkişafı üzrə ikinci dövlət proqramı dövründən başlayaraq respublikamızda sənayenin qeyri-neft sektorunun davamlı, çoxşahəli, rəqabət qabiliyyətli və innovasiya yönümlü inkişafına böyük diqqət göstərilir.Lakin Respublikamızda hələlik sənayenin qeyri-neft sektorunun inkişafı səviyyəsi və mövcud istehsal potensialı onun imkanlarından geri qalır.Digər tərəfdən Respublikamızda neft hasilatının sabitləşməsi və azalması meyilləri, neftin qiymətinin qeyri-sabitliyi və əksər hallarda aşağı düşməsi eyni zamanda qeyri-neft sənayesinin inkişafı sahəsində Respublikamızda toplanmış zəngin tarixi təcrübə və digər müsbət amillər bu sahənin inkişafına diqqətin artırılmasını tələb edir,digər tərəfdən onun inkişafına əlverişli şərait yaradır.Bu tələbləri və yaranmış əlverişli şəraiti nəzərə alaraq 2014-cü ildən başlayaraq Respublikamızda sənayedə və aqrar sahədə böyük islahatlar aparılır.Azərbaycanın sənayesi istehsal potensialının gücləndirilməsi və innovasiyaların tətbiqi əsasında ixrac yönümlü məhsul istehsalının artırılmasına istiqamətlənmişdir.Bu istiqamətdə sənayedə və kənd təsərrüfatında sahə və ərazi miqyasında əsaslı tədbirlər həyata keçirilir.

Müxtəlif böyüklükdə sənaye müəssisələrinin dinamikası

Respublikamızda aparılan sənayeləşmə, sənaye potensialının və ixracyönümlü məhsul istehsalının artırılması siyasəti birinci növbədə öz ifadəsini Sumqayıt və Balaxanı texnologiyalar parklarının, Sumqayıt kimya sənaye parkının yaranmasında tapmış və bunlarda çoxsaylı müasir sənaye müəssisələri istifadəyə verilmişdir.Bunlarla yanaşı Mingəçevir,Neftçala və Masallı,Salyan şəhərlərində müasir sənaye məhəlləri, sənaye parkları yaranmaqdadır. Bir çox digər sahələrdə yeni sənaye parkları və ya sənaye məhəllələrinin yaranması nəzərdə tutulur.Texnoparkların,sənaye parkları və sənaye məhəllələrinin,sənaye zonalarının yaranması isə öz ifadəsini Respublikamızda fəaliyyət göstərən sənaye müəssisələrinin, burada isə orta və böyük müəssisələrin sayının və məhsul istehsalının artmasında tapır.

Aşağıdakı Cədvəldə 2011-ci ildən sonrakı dövrdə sənaye müəssisələrinin dinamikası öz əksini tapmışdır. Cədvəldən görünür ki, Respublikamızda 2011-ci ildən sonrakı illərdə bütün müəssisələrin ,o cümlədən orta və böyük müəssisələrin sayı bütün çətinliklərə baxmayaraq müəyyən tərəddüdlərlə olsa da ümumilikdə artmışdır.2011-ci ilə nisbətən 2013-cü ildə sənaye müəssisələrinin ümumi sayı 19 vahid , 2015- ci ildə 75 vahid çox olmuşdur.Həm də bu artım orta və böyük müəssisələrin hesabına olmuşdur.Bu Azərbaycanın sənaye potensialının artırılması, sənaye parkları,sənaye məhəlləri və sənaye texnologiyaları parklarının yaradılması siyasətinin qanunu nəticəsidir.

Cədvəl №1

Fəaliyyət göstərən sənaye müəssisələrinin işçilərin sayına görə qruplaşdırılması

Müəssisələr	2011	2012	2013	2014	2015	2016
Cəmi sənaye müəssisələri: o cümlədən	2508	2514	2527	2534	2583	2561
Kiçik	1829	1821	1804	1721	1241	1352
Orta və böyük	679	623	723	813	1342	1209
Mədənçıxarma: o cümlədən	289	289	318	322	325	298
Kiçik	218	216	249	248	172	176
Orta və böyük	71	73	69	74	153	122
Emal sənayesi: o cümlədən	1791	1795	1764	1762	1778	1775
Kiçik	1420	1443	1388	1312	964	1056
Orta və böyük	371	362	376	450	814	719

Mənbə : Azərbaycan Dövlət Statistika komitəsi. Azərbaycanın sənayesi-2017, səh. 16-20

Bu siyasət davam etdiyinə görə Azərbaycanın orta və böyük sənaye müəssisələri siyahısına yaxın beş-altı ildə daha 60-a qədər müəssisə əlavə oluna və qeyri-neft sənaye məhsulu 2 dəfəyə qədər arta bilər.Yuxarıda göstərdiyimiz kimi 2011-2015-ci illərdə sənaye müəssisələrinin say artımı orta və böyük müəssisələrin artması hesabına baş vermişdir.Belə ki, bütün sənayedə, o cümlədən mədənçıxarma və emal sənaye sahələrindəki kiçik müəssisələrin sayı 2011-ci ilə nisbətən 2015-ci ildə 588 vahid,2016-cl ildə 477 vahid azalmışdır.Kiçik müəssisələrin sayı 2013-cü ilə nisbətən 2016-cı ildə mədənçıxarma sənayesində 73 vahid , emal sənayesində 332 vahid azalmışdır.Bu azalmaların birinci səbəbi onların mövcud mühitə həssaslığıdır.Böhran şəraiti yarananda, bu müəssisələrin kütləvi halda müflisləşməsi prosesi baş verir.Əlverişli şərait olduqda isə kiçik müəssisələrin sayı sürətlə artır, onların bir hissəsi böyüyərək orta və böyük müəssisələr qrupuna daxil olurlar.Respublikamızda orta və böyük müəssisələrin 2013-cü ilə nisbətən 486 vahid artaraq 723-dən 2016-cı ildə 1209-a çatmasında bir çox kiçik müəssisələrin böyüyərək orta və böyük müəssisələrə çevrilməsinin də rolu vardır. Beləliklə Respublikamızda sənaye müəssisələrinin son illərdə artması orta və böyük sənaye müəssisələrinin artması hesabına baş vermişdir.Bu artım tamamilə regionların payına düşür və qeyri neft sənayesinin inkişafı ilə əlaqədardır.Belə ki, Bakı şəhərində 2013-cü ildən sonra sənaye müəssisələrinin sayı ardıcıl olaraq azalmış 2013-cü ildəki 1249-a qarşı 2014-cü ildə 1225, 2015-ci ildə 1170 və 2016-cı ildə 1153 vahid olmuşdur. Ümumiyyətlə, 2013-cü ilə nisbətən 2016-cı ildə Bakı şəhərində fəaliyyət göstərən sənaye müəssisələrinin sayı 96 vahid azalmışdır.Əlbəttə bunun əsas hissəsi mədənçıxarma sənayesində müəssisələrin sayca azalması hesabına baş vermişdir.Beləliklə, Azərbaycanın sənayeləşmə və sənaye potensialının artırılması siyasəti məhz iqtisadi rayonlarda qeyri neft sənayesinin sürətli inkişafı və qeyri neft orta və böyük sənaye müəssisələrinin sayının artmasında öz ifadəsini tapmışdır.Bunu aşağıdakı 2 saylı cədvəldən aydın görmək olar.

Cədvəl №2

***Regionlarda* fəaliyyət göstərən sənaye müəssisələrinin sayı(vahidlə)**

Müəssisələr	2011	2012	2013	2014	2015	2016
Sənaye müəssisələri: o cümlədən	2508	2514	2527	2534	2583	2561
Bakı şəhəri	1215	2119	1249	1225	1170	1153
Abşeron	215	213	218	235	253	236
Gəncə-Qazax	270	269	264	271	297	283
Şəki-Zaqatala	107	113	113	116	132	141
Lənkəran	84	75	76	77	90	95
Quba-Xaçmaz	76	79	75	79	91	95
Aran	336	339	323	321	329	329
Yuxarı Qarabağ	28	29	30	31	37	38
Kəlbəcər-Laçın	-	-	-	-	-	-
Dağlıq Şirvan	40	40	40	39	44	44
Naxçıvan MR	133	135	135	135	132	134

ARDSK.Azərbaycanın sənayesi-2017,səh. 141-145

Belə ki, Respublikanın bütün iqtisadi rayonlarında 2013-cü ilə nisbətən 2016-cı ildə fəaliyyət göstərən sənaye müəssisələrinin sayı artmışdır.Bu da iqtisadi rayonlarda qeyri neft sənayesinin yaxın illərdə sürətlə inkişaf edəcəyinə inam yaradan mühüm bir amildir. Nəzərə alsaq ki, 2011-2013-cü illərdə regionlarda sənaye müəssisələrinin sayı heçdə həmişə ardıcıl olaraq artmamışdır.2014-2016-cı illərdə iqtisadi rayonun 5-də ardıcıl olaraq sənaye müəssisələrinin sayı artmışdır.Qalan 4 iqtisadi rayonda 2013-cü ilə nisbətən ,2016-cı ildə sənaye müəssisələrinin sayı bir il fasilə ilə artmışdır.Həmdə bir çox rayonlarda bu artım kifayət qədər yüksək olmuşdur.Belə ki, Gəncə - Qazaxda 24, Şəki-Zaqatalada 28, Lənkəranda 19, Quba-Xaçmazda 20, Aranda 4,Yuxarı Qarabağda 8, Dağlıq Şirvanda 4 yeni sənaye müəssisəsi fəaliyyətə başlamışdır.Əgər nəzərə alsaq ki, bu müəssisələrin xammal bazası genişlənir, bu sahələrin inkişafına dövlət qayğısı güclənir , xaricə məhsul çıxarmalar dövlət tərəfindən hərtərəfli dəstəklənir, onda bu müəssisələrdə məhsul istehsalının artacağı heç bir şübhə doğurmur.

Əgər orta və böyük sənaye müəssisələrinin say artımı ilə sənayedə məhsul istehsalı indekslərini müqayisəli nəzərdən keçirsək burada bir aslılıq olduğunu görərik.

Cədvəl № 3

Regionlarda sənaye istehsalının indeksləri (əvvəlki ilə nisbətən %-lə)

	2011	2012	2013	2014	2015	2016
Azərbaycan :o cümlədən	95	97,7	101,8	99,3	102,4	99,9
Bakı şəhəri	92,8	96,3	101,7	98,7	102,8	98,0
İqtisadi rayonlar:						
Abşeron	128,5	112,7	99,1	108,2	104,5	115,9
Gəncə-Qazax	98,0	157,8	108,7	109,5	117,3	119,3
Şəki-Zaqatala	115,7	101,7	100,0	118,9	111,0	135,9
Lənkəran	147,4	138,9	87,9	97,9	96,2	132,7
Quba-Xaçmaz	123,3	90,0	105,3	91,5	102,0	107,2
Aran	103,0	106,1	101,4	107,7	87,7	106,2
Yuxarı Qarabağ	94,0	132,	111,5	107,0	107,5	112,5
Kəlbəcər-Laçın	-	-	-	-	-	-
Dağlıq Şirvan	120,5	146,5	110,8	121,0	91,2	102,3
Naxçıvan MR	206,5	115,7	106,3	102,5	102,0	101,7

ARDSK. Azərbaycan sənayesi-2017,səh. 48-49

2014-2016-cı illərdə Naxçıvan MR-da,Yuxarı Qarabağ, Şəki-Zaqatala , Gəncə-Qazax , Abşeron iqtisadi rayonlarında sənaye məhsulu istehsalı fasiləsiz olaraq sürətlə artmışdır.Dağlıq Şirvan ,Aran,Quba-Xaçmaz İqtisadi Rayonlarında yalnız 2015-ci ildə sənaye məhsulu,istehsalı əvvəlki ilə nisbətən azalmışdır. Beləliklə,regionlarda orta və böyük müəssisələrin ardıcıl olaraq artması qeyri neft sənaye məhsulu istehsalının da artmasına səbəb olmuşdur.Məlumdur ki, 2016-cı il sənaye və kənd təsərrüffatında dərin islahatlar ili kimi tarixə düşüb.İslahatlar aparılan ildə isə bir qayda olaraq gələcək iqtisadi inkişaf üçün zəmin yaradılır.Əksər hallarda isə həmin ildə sürətli iqtisadi artım olmur.Buna baxmayaraq 2016-cı ildə sənaye məhsulu istehsalı 2013-cü ilə nisbətən bütün iqtisadi rayonlarda artmışdır.

Cədvəl №4

2013-cü ilə nisbətən 2016-cı ildə regionlarda sənaye məhsulu istehsalı artımı(müqayisəli qiymətlərlə)

İqtisadi rayonlar	**Sənaye məhsulunun artımı(%-lə)**
Abşeron	195
Gəncə-Qazax	202
Şəki-Zaqatala	258
Lənkəran	157
Quba-Xaçmaz	122
Aran	134
Yuxarı Qarabağ	162
Kəlbəcər-Laçın	-
Dağlıq Şirvan	130
Naxçıvan MR	110

Mənbə: Müvafiq statistik göstəricilər əsasında müəllif hesablamaları

Azərbaycanın regionlarında son 3 ildə qeyri neft sənaye məhsulunun sürətlə artdığı bu cədvəldən çox aydın görünür.Cəmi 3 il ərzində Gəncə-Qazax və Şəki -Zaqatala iqtisadi rayonlarında sənaye məhsulu iki dəfədən çox ,Yuxarı Qarabağda 62, Lənkəranda 57 və Abşeron iqtisadi rayonlarında 95% artmışdır. Quba-Xaçmazda 22, Aranda 34, Dağlıq Şirvanda 30 və Naxçıvan MR-də 10% artım olmuşdur.Bu rəqəmlərə qiymət verərkən bu illərin islahatlar ili olduğunu,həmin illərdə inkişafdan çox gələcək inkişaf üçün təməl qoyulduğunu nəzərə almalıyıq.Eyni zamanda Naxçıvan MR Azərbaycanda yeganə regiondur ki, son 9 ildən çox müddətdə burada sənaye hər il artmışdır.Bütün yuxarıda aparılan təhlil Azərbaycanda son illərdə qeyri neft orta və böyük sənaye müəssisələrinin və bu sahədə məhsul istehsalının sürətlə artığını göstərir.Bununla yanaşı müxtəlif növ müəssisələrin və sənaye məhsulu istehsalının artımında ayrı-ayrı inzibati rayon və şəhərlərdə müəyyən uyğunsuzluqlar və problemlər var. Bütövlükdə iqtisadi rayonlarda orta və böyük müəssisələrin sayı artsada , bir çox inzibati rayon və şəhərlərdə belə müəssisələrin tikintisinə diqqət artırılmalıdır.Misal üçün Astara,Oğuz,Qobustan rayonlarında və Naftalan şəhərində 2011-ci ildən Qazax,Tovuz, Qusar,Kürdəmir rayonlarında, 2012-ci ildən ,Şirvan şəhərində son 3 ildə fəaliyyət göstərən orta və böyük müəssisələrin sayı artmamışdır.Əlbəttə, qeyri neft sənayesinin inkişafında böyük uğurlar qazanıldığı son 4-5 ildə bu rayon və şəhərlərdə yeni orta və böyük müəssisələrin fəaliyyətə başlamaması diqqəti cəlb etməyə bilməz.Sənayenin sürətlə və səmərəli inkişafı, məhsuldar qüvvələrin səmərəli yerləşməsi üçün yalnız sənaye parklarının ,sənaye zona və ya məhəllələrinin yaranması kifayət etmir,həm də bunlar qısa vaxtda

bütün rayon və şəhərlərdə formalaşdırmaq mümkün deyil.Yerli resurslardan səmərəli istifadə etmək üçün ayrı-ayrı müəssisələrin tikintisinə də diqqəti artırmaq lazımdır.Bu həmçinin bütün regionlarda sənaye potensialının artırılması mənafeyinə də uyğundur. Eyni zamanda texnoparkların ,sənaye məhəllərinin yaradılması zamanı bütövlükdə məhsuldar qüvvələrin səmərəli yerləşməsi,bütün şəhərlərin inkişafının təmin edilməsi mənafeyi, xüsusilə regional mədəni-iqtisadi mərkəz şəhərlərin üstün sürətlə inkişafı mənafeyi nəzərə alınmalıdır.Bununla yanaşı bir çox inzibati rayon və şəhərlərdə ya yeni müəssisələrin fəaliyyətə başlamaması, ya da digər səbəblər nəticəsində sənaye məhsulu istehsalı kifayət qədər artmır.Belə şəhər və inzibati rayonlara misal olaraq Mingəçevir, Daşkəsən, Şirvan,Yevlax şəhərlərini,Xaçmaz və Astara rayonlarını göstərmək olar.Bu şəhər və rayonlarda sənaye məhsulu istehsalı demək olarki,2011-ci ildən sonrakı illərdə artmamışdır.Bunlarla yanaşı Naxçıvan MR ,Quba-Xaçmaz və Dağlıq Şirvan iqtisadi rayonlarında sənayenin inkişafına diqqət artırılmalıdır.Təhlil göstərir ki, dəri və dəri məmulatları istehsalı,əczaçılıq məmulatları,mebel ,tibb avadanlıqları,idman malları, geyim və tütün məmulatları istehsalı sahələrində 2011-ci ildən sonrakı dövrdə orta və böyük müəssisələrin sayı artmamış, əksinə belə müəssisələrin sayının azalması halları müşahidə olunur.

Məhsul istehsalının miqdarı və işçilərin sayını əsas götürməklə kiçik ,orta və böyük müəssisələr arasında sərhədlər dəqiq müəyyən edilməli, bu müəssisələrin göstəricilərinin uçot və hesabatı təkmilləşdirilməli, hər qrup müəssisələrin statistik göstəriciləri iqtisadiyyat sahəsinin statistikasında ayrılıqda qeyd olunmalıdır.

Respublikamızda kiçik və orta sahibkarlığın inkişafına həmişə qayğı göstərilmişdir.2014-cü ildən iqtisadiyyatda aparılan əsaslı islahatlarla əlaqədar olaraq Azərbaycan iqtisadiyyatının prioritetləri xeyli dəyişmiş , kiçik və orta sahibkarlığa dövlət qayğısı daha da güclənmişdir. Bu qayğının reallaşması üçün bu sahədə aparılan elmi-tədqiqat işlərinin keyfiyyəti də yüksəldilməlidir.Regional tədqiqatlarda yalnız statistikaya istinad etmək kifayət deyil.Regionlara səfərlər etməklə yerlərdə baş verən iqtisadi ,sosial proseslərlə tanış olmaq , kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar əlavə təklif və tövsiyyələr hazırlamaq vacibdir. Kiçik müəssisələrin xərclərinin strukturunda beynəlxalq təcrübəni nəzərə almaqla güzəştli kredit hesabına olan xərclərin xüsusi çəkisinin artırılması da mümkündür.Biznesə yeni başlayanlar üçün kreditin nisbətən aşağı faizlə verilməsi də məqsədyönlü olardı.Bununla yanaşı kiçik müəssisələrə kredit verərkən regionun inkişaf səviyyəsini də nəzərə almaq lazımdır.İnkişaf potensialı kifayət qədər yüksək olub ,inkişaf səviyyəsi nisbətən aşağı olan regionlarda kreditin faizini nisbətən aşağı salmaq olar. Əlbəttə regionlarda sənaye potensialının artırılması üçün dövlətimizin sahibkarlığın inkişafına göstərdiyi qayğını əldə rəhbər tutaraq çox saylı digər tədbirlər də görmək mümkündür.

NƏTİCƏ

İstehsal və ixrac potensialının artırılması, məhsulun rəqabət qabiliyyəti və səmərəliliyinin yüksəldilməsi müasir dövrdə Azərbaycanın sənaye siyasətinin əsasını təşkil edir. Bu siyasətin reallaşması nəticəsində 2013-cü ilə nisbətən 2016-cı ildə regionlarda istehsal olunan sənaye məhsulunun miqdarı artmışdır. Bu artımın təmin edilməsində texnoparklar, sənaye parkları, sənaye zonaları və məhəllələrinin yaradılması ilə yanaşı regionlarda yeni kiçik, orta və böyük sənaye müəssisələrinin istifadəyə verilməsi də mühüm rol oynayır. Lakin təhlil göstərir ki, müəssisələrin ümumi sayı artsada, bir çox rayon və şəhərlərdə , sənaye sahələrində bu artım kifayət qədər təmin edilmir. Belə ki, Respublikamızda 10 iqtisadi rayondan 2-də, Bakı, Şirvan və Naftalan şəhərlərində, habelə bir çox inzibati rayonlarda (Astara, Oğuz, Qobustan, Qazax, Tovuz və i.a.) 2011-ci ildən sonrakı illərdə sənaye müəssisələrinin sayı kifayət qədər artmamışdır. Bunlarla yanaşı bütövlükdə kiçik sənaye müəssisələrinin və emal sənayesində müəssisələrin sayının artımı da sabit xarakter daşımır. Bütün bunlar Respublikamızda sənaye parkları, texnoparklar, sənaye məhəlləri və sənaye zonalarının yaranması ilə yanaşı ayrı-ayrı inzibati

rayon və şəhərlərdə də yeni sənaye müəssisələrinin, xüsusilə də kiçik sənaye müəssisələrinin tikintisinə və kiçik sahibkarlığın inkişafına diqqətin artırılmasını tələb edir.

ƏDƏBİYYAT SİYAHISI

1. ARDSK "Azərbaycan sənayesi" statistik məcmuə. Bakı-2017
2. "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" nın icrasının dördüncü ilinin yekunlarına həsr edilmiş konfransda prezident İlham Əliyevin giriş və yekun nitqi. Xalq qəzeti. 30.01.2018.
3. Ə.X.Nuriyev " Davamlıvə tarazlı regional inkişaf. Bakı-" Avropa".2017-242 səh.

Нуриев А. Х.
Член-корреспондент Национальной Академии наук Азербайджана, профессор, заслуженный деятель науки.

Не нефтяные промышленные предприятия Азербайджана: нынешнее состояние и перспектива развития

Резюме

В статье анализируются тенденции роста численности малых, средних и больших промышленных предприятий и в соответсвии с этим роста производства промышленный продикции в регионах Азербайджана . Вы являются сушествуюшие проблемы , недостатки в этой области, даются конкретные предложение в напровления их решения, обосновывается необходимость усиления внимания на развития малого предпринимательство.

Ключевые слова: *малые, средние и большие предприятие, промышленная политика , промышленный потенциа, развитие производство, экспортной продукции.*

Nuriyev A. X.
Correspondent-member of Azerbaijan National Academy of Sciences,
Professor, Honored Scientist.

Non-oil industry enterprises of Azerbaijan: current situation and development perspectives

Resume

The article highlights the recent increase in the number of small, medium and large industrial enterprises in the regions as a result of recent reforms in the non-oil industry of Azerbaijan and, as a result, a trend towards an increase in industrial production. The problems and shortcomings in this area are identified, proposals and recommendations are put forward. The importance of increasing the number of small enterprises is justified.

Key words: *small, medium and large enterprises, industrial policy, industrial potential, export-oriented product.*

Daxil olub: 18.11.2017